`

# UEFA B Məşqçilik kursuna müraciətlərin qəbulu

## Ümumi məlumat

UEFA B Məşqçilik kursu UEFA C kursundan sonra məşqçiliyin inkişafı yolunun növbəti addımıdır və artıq bu sahə üzrə təcrübəsi olanlar, oyunçu və komanda inkişafı üzərində daha sistemli işləmək istəyənlər üçün nəzərdə tutulur.

Kurs AFFA tərəfindən UEFA-nın Məşqçilik Konvensiyasına uyğun olaraq təşkil olunur və iştirakçıların həm nəzəri biliklərini, həm də real məşq və oyun mühitində praktiki bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır.

## Kursun məzmunu

Kurs aşağıdakı istiqamətləri əhatə edir:

- məşqçinin rolu, metodologiyası və peşəkar inkişafı;
- müxtəlif yaş və bacarıq səviyyəsində olan oyunçuların inkişafı;
- fərdi oyunçu və komanda performansının planlaşdırılması və idarə edilməsi;
- məşq prosesinin planlaşdırılması, keçirilməsi və qiymətləndirilməsi;
- texniki, taktiki, fiziki və sosial davranışların məşq prosesinə inteqrasiyası;
- oyunçular üçün uyğun öyrənmə nəticələrinin müəyyən edilməsi;
- oyunçuların qərarvermə, yaradıcılıq və problem həll etmə bacarıqlarının inkişafı;
- oyun və matç performansının təhlili;
- məşq və oyunlardan sonra obyektiv geribildirim;
- məşqçi heyəti ilə əməkdaşlıq;
- özünüqiymətləndirmə və davamlı peşəkar inkişaf.

`

**Kursun müddəti:** 4 ay (ümumi 222 saat (34% nəzəri / 66% praktiki))

**Kursun keçirilmə formatı:** nəzəri hissə AFFA-da, praktiki hissə isə meydanda və iştirakçıların fəaliyyət göstərdiyi mühitdə keçirilir.

**Kimlər üçün nəzərdə tutulub?**

- UEFA C lisenziyasına malik məşqçilər (lisenziyanın alınma tarixindən sonra minimum 1 il təcrübə tələb olunur);
- uşaq-gənclər, akademiya və klub mühitində çalışan məşqçilər;
- komanda ilə davamlı məşq prosesi aparan şəxslər;
- fərdi oyunçu və komanda inkişafı üzrə daha yüksək səviyyədə işləmək istəyən məşqçilər;
- UEFA məşqçilik pillələri üzrə inkişafını davam etdirmək istəyən şəxslər.

**Seçim meyarları**

Namizədlər aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

- peşəkar oyunçu karyerası;
- məşqçilik karyerası;
- UEFA C kursu üzrə nəticələr;
- seçim testinin nəticələri.

Ümumi qiymətləndirməyə əsasən, ən yüksək nəticə göstərən 16 namizəd kursa qəbul ediləcək.

**Əlavə məlumat**

`

- Kurs müddətində iştirakçılar nəzəri bilikləri ilə yanaşı, məşq prosesində iştirakı, praktiki sessiyalardakı performansı, klub mühitində tətbiqi fəaliyyəti, oyun və məşq təhlili, geribildirim bacarıqları və yekun qiymətləndirmələrin nəticələri əsasında dəyərləndiriləcəklər.
- Təlimin qiyməti 1 nəfər üçün 1000 AZN təşkil edir.

## Qəbul prosesi və qeydiyyat

Seçim prosesi elektron ərizə forması vasitəsilə həyata keçirilir. İlkin qiymətləndirmədən sonra seçilmiş namizədlər seçim testinə dəvət olunacaqlar.

Bütün seçim mərhələlərini uğurla tamamlayan şəxslər sənədləri təqdim etdikdən və müvafiq tələbləri yerinə yetirdikdən sonra kursda iştirak hüququ qazanırlar.

Qeydiyyat yalnız elektron formada aparılır.

Son müraciət tarixi: 26 iyul 2026-cı il

Kursun başlanma tarixi: 10 avqust 2026-cı il

Qeydiyyat linki: https://forms.microsoft.com/r/h29krf6RKn